**Kamil Kəmərov**
**Magistrant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail:**kamil.kemerov@bk.ru

# Beynəlxalq turizm

**Xülasə:** Turizm xalq və cəmiyyətlər arasında qarşılıqlı anlaşma və hörmət vasitəsidir. Turizm turistləri qəbul edən ölkələr üçün sərfəli fəaliyyət növüdür. Turizmin inkişafı, turizm xidmətinin təşkilindən aslıdır. Turizm xidmətinin təşkili sosial-iqtisadi, mədəni, siyasi və kulturoloji funksiyalarının həyata keçirilməsində xüsusi əhəmiyyət kəsb edir. Turizm xidməti müasir dünyanın qlobal əhəmiyyətə malik olan sahəsidir. Dünyanın hər yerində turizm xidmətlərinə böyük maraq göstərilir. Məhz buna görə də bütün maliyyə qurumları turizmə maraqlıdırlar. Turizm xidməti ən tutumlu sahə olub, sahibkarlığın inkişafı ücün prespektivlər açır. Ümumiyyətlə turizm xidmətlərinin inkişafı həm də ölkə iqtisadiyyatının inkişafı ilə nəticələnir.

**Açar sözlər:** turizm, beynəlxalq, iqtisadiyyat, gəlir

Beynəlxalq turizm – xidmətlərin beynəlxalq ticarətinin əsas və vacib sahələrindən biridir. Eyni zamanda, beynəlxalq turizm beynəlxalq iqtisadiyyatın sürətlə inkişaf edən, biznes sahəsinin ən gəlirli növü, böyük həcmdə investisiya cəlb edən, artan məşğulluğu təmin edən və həmçinin ölkə büdcəsinə gəlir gətirən sahələrindən biridir. Faktiki olaraq, müasir dünya iqtisadiyyatında qlobal turizm sisteminin elementləri formalaşır.

Qlobal turizm sistemi özündə beynəlxalq mehmanxana şəbəkələrini, hava, su və yer üzündəki turist daşınmalarını o cümlədən yerlərin əvvəlcədən sifarişi üzrə kompüter sistemini birləşdirir. Son illər turizm dünyada sürətlə inkişaf edən iqtisadi sektor kimi qeyd olunur. Bu sahə gəlirlərin miqdarına görə neft ixracı və avtomobil sənayesindən heç də geri qalmır. Bir sıra ölkələrin büdcəsinin formalaşmasında, ticarət balansının sabitləşməsində turizm mühüm rol oynayır.

Lakin turizmin rolu bununla da bitmir. Turizminin inkişafı ölkələrdə işsizlik kimi ağır problemin öhdəsindən gəlməyə stimul verərək, iqtisadiyyatın təkanverici qüvvəsi rolunu oynayır. Bu da ümumi daxili məhsulun (ÜDM) formalaşmasına və sosial-iqtisadi problemlərin həllinə zəmin yaradır.

Turizmin inkişafı yalnız ölkə vətəndaşlarının səyahətə çıxmalarının sayı ilə deyil, bütövlükdə turizmin infrastrukturunun modernləşdirilməsi prosesi kimi başa düşülür.

Dünyada turizm imkanlarına görə inkişaf etmiş ölkələr Avropa, Asiya və Sakit okean hövzəsi, eləcədə Amerika regionunu əhatə edir. Son illər Asiya və Sakit okean regionunda turizmin sürətli inkişafı mütəxəssislərin bu ərazini "Turizmin gələcəyi" adlandırmasına səbəb olub.

Dünyada daha çox turist göndərən ölkələr kimi ABŞ, Almaniya, Britaniya göstərilir. Daha çox turist qəbul edən ölkələrdən isə Fransa, İspaniya, ABŞ və İtaliya fərqlənir.

BMT-nin Dünya Turizm Təşkilatının (DTT) məlumatına görə, bir ildə 82 milyon turist qəbul edən Fransa bu sahədə dünyada liderlik edir. Fransa bu göstəriciyə görə ABŞ-ı (62,7 milyon), Çini (57,6 milyon), İspaniyanı (56,2 milyon) xeyli geridə qoyub. Bu müvəffəqiyyət ölkənin təbiətinin rəngarəngliyi və gözəlliyi, mədəni irsinin, o cümlədən muzeylərinin, tarixi abidələrinin zənginliyi ilə izah olunur. Turist axınının əsas hissəsi Parisə yönəlsə də, Laciverd sahil (Kann), Luara vadisi, Atlantik okeanın sahilləri və cənub-qərb regionları da turistlərin sevimli yerlərinə çevrilib.

Nepalda Comolunqma (Everest) zirvəsi, Misirdə qədim fironların ehramları, Hindistanda Tac-Mahal, Yunanıstanda Akropol, İtaliyada məşhur Kolizey abidəsi bütün insanların görmək istədiyi yerlərdir. İspaniya, Portuqaliya, Türkiyə və digər ölkələrdə gözəl dəniz çimərlikləri və Aralıq dənizinin mülayim iqlim şəraitinin olması həmin ölkələrə turistlərin böyük maraq göstərməsini şərtləndirir.

DTT-nin məlumatına görə, 2018-ci ildə dünyada turistlərin sayı 1 milyard 400 millyon nəfər olmuşdur. Proqnozlara görə, 2020-ci ilə dünyada turistlərin sayı 1,86 mlrd.nəfərə qədər artacaqdır.

Bu rəqəm 3,3%-lik artımla 2030-cu ilə 1,8 milyard nəfərə çatacaq.

Son illər Türkiyədə turizm sənayesininin inkişafına və bu sahə üçün ixtisaslı kadrların hazırlanmasına böyük diqqət yetirilir. Gözəl təbiəti və tarixi abidələri ilə yanaşı, müasir turizm infrastrukturu, hava limanları, mehmanxanalar, müxtəlif nəqliyyat növlərindən səmərəli istifadə imkanı uzun müddətli maraqlı turlar təşkil etməyə imkan yaradır.

Türkiyə Səyahət Agentləri Birliyinin məlumatına görə, 2018-ci ildə Türkiyəyə 46 millyon insan səfər edib. Müqayisəyə görə, 2014-cü ildə Türkiyəyə gələnlərin sayı 37-38 milyon nəfər, turizm gəlirlərinin həcmi 35 milyard dollar olmuşdur.

Son illər ölkəmizdə də turizmin inkişafına xüsusi diqqət yetirilir. Hotel və mehmanxana şəbəkəsi genişlənir, müasir yol infrastrukturunun qurulması işləri gerçəkləşir. Qusarda inşa olunan "Şahdağ" Qış-Yay Turizm, Qəbələdə "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət komplekslərinin yaradılması ölkəmizdə turizmi mövsümlük məhdudiyyətdən azad edir. Bununla da Azərbaycan turizminin inkişafında yeni mərhələnin əsası qoyulur.

2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramının qəbul edilməsi və 2011-ci ilin "Turizm ili" elan olunması ölkəmizdə turizmin inkişafına böyük təkan vermişdir. Azərbaycanın tarixi abidələri, milli mətbəxi və ecazkar təbiəti, xarici turistlər üçün də xüsusi maraq oyadır. Bu da öz növbəsində ölkəmizin iqtisadi imkanlarının artması ilə yanaşı, Azərbaycanın dünyaya tanıdılması üçün mühüm vasitədir. Son bir neçə ildə Azərbaycanda turizm sektorunun inkişafı üçün müəyyən addımlar atılıb. Bu məqsədlə yeni otellər, istirahət mərkəzləri tikilib. Xarici turistlərin ölkəyə cəlb edilməsi üçün viza rejimi sadələşdirilib, həmçinin formlar, sammitlər və idmanoyunları keçirilib. Əcnəbi turistlərin Azərbaycanda rahat və təhlükəsiz istirahət etmələri üçün tam təminat var.

Bənzərsiz təbiət, mineral su qaynaqları, dünyada yeganə müalicəvi Naftalan nefti, nadir qədim memarlıq abidələri, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər Azərbaycanda turizmin bütün növlərinin: işgüzar, idman, müalicəvi, tanışlıq, ovçuluq, ekzotik, çimərlik, qastronomik və hətta qış turizminin inkişafı üçün şərait yaradır. Qarşıdan gələn yay turizm mövsümü ilə bağlı ölkəmizin geniş turizm imkanları ilə tanış olmaq və istirahətini təşkil etmək məqsədilə çoxsaylı turistlərin Azərbaycana səfəri planlaşdırılır.

Son illər bu istiqamətdə müsbət dinamika güclənməkdədir. Hər il Azərbaycanda 25-50 yeni mehmanxana, hotel, motel və digər turist yerləşdirmə obyektinin təməli qoyulur. Bundan başqa, iş adamlarında turizm sahəsinə böyük maraq yaranıb. 10 il əvvəl ölkədə cəmi 52 turizm şirkəti vardı, bu gün isə onların sayı 143-dür. Dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək üçün müxtəlif istiqamətlərdə fəal işlər görülür. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsini tanıtmaq məqsədilə kitablar, bukletlər, disklər hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir. Bu istiqamətdə internet imkanlarından geniş istifadə olunur.

Ümumilikdə son 2 ildə ölkəyə gələn turistlərin sayı 51 faiz yüksəlib. Bu yüksək rəqəm Dünya Turizm Təşkilatı tərəfindən də qeyd olunub. Dünyada turizm sahəsində böhran və çətinliklərin olmasına rəğmən, Azərbaycan turist sayının yüksək artımına nail olub. Bu, ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin nəticəsi olmaqla yanaşı, həm də dövlət tərəfindən turizm sahəsinə göstərilən diqqətin təzahürüdür. Bu da növbəti illərdə bu göstəricinin qat-qat çox artacağını ümid etməyə əsas verir.

## Ədəbiyyat:

1. Турция. Справочник-путеводитель. Ростов-на-Дону. "ФЕНИКС", 2001.
2. Харрис Г., Кац К.М. Стимулирование международного туризма в XXI

веке (пер. с англ.). М., 2000.
3. WTO Tourism Highlights 2000. World tourism Organization - March, 2000.
4. Hospitality, Tourism and Leisure Management: Issues in Strategy and Culture. London, 1997.
5. Rəhmanov F.P.”Sosial sfera keçid iqtisadiyyatı şəraitində” Bakı 1998
6. Siyavuş Yeganlı E.Hacıyev “Turizm” Bakı 2001
7. Əlirzayev Ə.Q. “İqtisadiyyat: düşüncələr, baxışlar” Bakı, 2002

## Международный туризм
## Резюме

Туризм является средством взаимопонимания и уважения между народами и обществами. Туризм - прибыльная деятельность для стран принимающих туристов. Развитие туризма зависит от организации туристических услуг. Это имеет особое значение при организации туристических услуг при реализации социально-экономических, культурных, политических и культурных функций. Туризм является глобально важной областью современного мира. Во всем мире существует большой интерес к туристическим услугам. Именно поэтому все финансовые институты заинтересованы в туризме. Туризм является трудоемкой отраслью и открывает перспективы для развития предпринимательства. В целом, развитие туристических услуг также приводит к развитию экономики страны.

**Ключевые слова:** туризм, международный, экономика, прибыль

## International Tourism
## Summary

Tourism is a means of mutual understanding and respect between peoples and societies. Tourism is a lucrative activity for host countries. The development of tourism depends on the organization of tourism services. This is of particular importance in organizing tourism services in the implementation of socio-economic, cultural, political and cultural functions. Tourism is a globally important area of the modern world. All over the world, there is a great interest in tourism services. That is why all financial institutions are interested in tourism. Tourism is a labor-intensive industry and opens up prospects for the development of entrepreneurship. In general, the development of tourism services also leads to the development of the country's economy.

**Key words:** tourism, international, economy, profit